# Müasir və inkişafetdirici təlimin kiçik məktəbli şəxsiyyətinə təsiri

**Aynur Qasımova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aynurmehdiyeva84@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** müasir təlim, təlim metodları, təlim texnologiyaları, inkişaf etdirici təlim
**Ключевые слова:** современное обучение, методы обучения, технологии обучения, развивающая среда
**Key words**: modern training, training methods, training technologies, developing medium

Müstəqil Azərbaycan Respublikasının bütün sahələri, o cümlədən təhsil sistemi də sürətlə inkişaf edir. Ulu öndərimiz Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli" Azərbaycan Respublikası təhsil sisteminin islahat proqramı" haqqında fərmanı ilə başlayan təhsil islahatı bu gün də uğurla davam etdirilir. İslahatın əsas mahiyyəti yeni təfəkkür işığında təhsilin humanistləşdirilməsi, milli zəmin prinsipləri əsasında dünya standartlarına uyğun məktəbin qurulmasıdır. Bu gün respublikamızda yeni təfəkkürün məhsulu olan humanistləşdirmə, demokratikləşdirmə prosesləri gedir. Bu proseslərin həyata keçirilməsi üçün yeni və müasir texnologiyalar, yeni təlim metodları irəli sürülür.

Müasir dövrdə təlim işini dövrün tələblərinə uyğun şəkildə təşkil etmək vacib məsələlərdən biridir. Yeni təfəkkür müasir məktəbdə şagirdlərə fikri öyrətmək deyil, daha çox fikirləşməyi, müstəqil bilik qazanmağı öyrətməyi tələb edir, müasir məktəb monoloqlar əvəzinə, dialoqlar, müəllim-şagird münasibətlərində əməkdaşlıq, qarşılıqlı, sərbəst fikir yürüdülməsini genişləndirib inkişaf etdirir.

İnkişafetdirici təlim metodlarının tətbiq edildiyi müasir sinif şəraitində şagirdlərə müstəqil və sərbəst fəaliyyət göstərmələri üçün daha əlverişli mühitin yaradılması tələb olunur. Müəllimin yaratdığı demokratik mühit şəraitində keçilən dərslərdə müəllim-şagird, şagird-şagird münasibətləri qarşılıqlı hörmət və ehtiramla əvəz olunur. Sualların cavablandırılmasında, şagirdin müzakirələrə, dialoqa tez-tez cəlb olunmasında, işçi vərəqlər üzərində sərbəst, müstəqil işləməsində, yoldaşlarına sual verməsində, dərsin mövzusunun, mahiyyətinin, mühüm fikrin seçilib planlaşdırılmasında şagirdlərin fəal iştirakının təmin edilməsi şagirdlərdə öz gücünə, bacarığına inam yaradır.

Təlimin təşkil forması olan dərs məktəbin fəaliyyətinin əsasıdır. Yaxşı dərsin təşkili üçün müəllim əməyi şərtdir. Dərs şagirdə bilik verməli, onda dünyagörüşü yaratmalı, onu müstəqil fəaliyyət üçün hazırlamalıdır. Dərsin keyfiyyəti ilk növbədə müəllimin ixtisas və metodik hazırlığından, pedaqoji ustalığından asılıdır. Hər bir müəllim dərsin vəzifələrini, mahiyyətini, qarşısında dayanan yaxın və uzaq məqsədi, dərsin təşkili yollarını elmi cəhətdən dərindən bilməlidir. Müəllim əməyinin, xüsusilə dərsin idarə edilməsinin elmi təşkili mütləq nəzərə alınmalıdır. Dərs həm də müəllimlə şagirdin qarşılıqlı münasibətidir, etik və estetikliyin birliyidir. Keyfiyyətli dərs bütün şagirdlərin fəallığı, gücü, marağı ilə müşayiət edilən yüksək peşə hazırlığına malik müəllimin öyrətmə və tərbiyəetmə işinin nəticəsidir. Təbii ki, uyğun metod və üsulların tətbiqi ilə dərsin uğurlu alınmasına nail olmaq olar.

Müasir təhsilin əsas məqsədi təlimin səmərəliliyini maksimum artırmaqla, kiçik məktəbli şəxsiyyətinə bilikləri tətbiq etməyi, hadisələri obyektiv qiymətləndirməyi bacaran gənc nəsil yetişdirməkdir. İnkişaf etmiş ölkələrin təhsil sistemində interaktiv təlim metodlarından istifadə geniş yayılmış, şagirdlərin sərbəst düşünmələri, müstəqil fikir söyləmələrinə şərait yaratmaq baxımından həmin metodlar daha faydalı hesab edilmişdir. İnteraktiv təlim dedikdə, dərsdə yaranan, təlim prosesində meydana çıxan şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim şagird birliyi nəzərdə tutulur. İnteraktiv metodlar isə həmin prosesdə öyrənmə və anlaşma, eləcə də irəlidə qeyd etdiyimiz bacarıq və keyfiyyətlərə şagirdlərin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar və vasitələrdir.

Azərbaycan təhsil sistemində tətbiqinə başlanılmş" Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası" (Milli Kurikulumu) sənədində inkişafetdirici təlim uşağın inkişafının təmin olunmasında mühüm təsir vasitəsi kimi müəyyən edilir. Təlimin inkişafetdirici xarakteri tədris prosesində tətbiq olunan metodlardan çox asılıdır. Ona görə də müəllimlər ilk növbədə təfəkkürün inkişafının qayğısına qalmalı, nəyi, nə üçün və necə öyrətmək problemi onların həmişə diqqət mərkəzində olmalıdır.

Məktəbdə təlim işi elə qurulmalıdır ki, hər bir şagird özünü təlim prosesinin mərəzində hiss edə bilsin. O, öz interaktiv, fəal fəaliyyəti ilə həmişə diqqəti cəlb edə bilsin. Fəal və interaktiv metodların müəyyənləşdirilməsi və tətbiqi müəllimin peşəkarlıq səviyyəsindən, nəzəri və praktik hazırlığından, qarşıya qoyulmuş məqsəd və şəraitdən asılıdır.

Şagirdlərin bilik və bacarıqlara yiyələnməsinin keyfiyyətini yüksəltmək üçün şübhəsiz, müxtəlif təlim texnologiyalarından, onların metodik elementlərindən istifadə edilməlidir. Bu zaman şagirdlərin yaş və psixoloji xüsusiyyətləri nəzərə alaraq, onlardan ən müvafiqi seçilməlidir. Bütün mövzular üçün eyni metod və priyomlar uyğun gələ bilməz. Ona görə də müəllimlər bir konkret mövzuya uyğun səmərəli təlim strategiyası axtarıb tapmalıdır. Əsas odur ki, təlimin inkişafetdiriciliyi həmişə diqqət mərkəzində saxlanılsın.

Professor A.O. Mehrabov qeyd etmişdir ki, yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin şəxsi keyfiyyət və qabiliyyətlərinin qazanılmasına yönəldilir. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında xüsusi seçilmiş, asan başa düşülən və ya yadda qalan ən vacib təlim materiallarının öyrənilməsi prosesində fakt hadisələrin, səbəb-nəticə əlaqələrinin qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin araşdırmalar aparmağı öyrənirlər.

Göstərilən işlərin yetirilməsinə interaktiv təlim müəyyən imkanlar açır. Fəal təlim metodları üzərində qurulan dərsdə müəllim və şagird arasında qarşılıqlı əlaqə olur. Müəllim hər hansı mövzu haqqında qısa məlumat verir. Mövzu haqqında daha geniş, ətraflı məlumatları isə kiçik tədqiqatçılar olan şagirdlər özləri kəşf edir, özləri tapırlar. Bu proses kiçik məktəblilərdə ruh yüksəkliyi yaradır, onlarda özünə inam, heç kimdən asılı olmadan sərbəst fikir söyləmək, əzbərçilik və təkrarçılıqdan, hazır biliklər passiv şəkildə mənimsəmədən uzaq olaraq öz məntiqi nəticələrini azad söyləmək qabiliyyətini inkişaf etdirir.

Fəal təlim prosesində istifadə olunan metodlar çoxdur. Onlardan "Klaster", "Dəyirmi masa", "BİBÖ", "Venn diaqramı", "İnsert", "Diskussiyalar", "Rollu oyunlar", "Ziqzaq", "Karusel" və bəzilərinə diqqət yetirək. "Klaster" (şaxələndirmə) - Klaster diskursiv təsdiq üzərində qurulur. Yəni buradakı məntiqi ardıcıllıq - hər bir fikrin əvvəlkində yaranması və sonrakını doğurmasıdır. Müəllim dərsin əvvəlində şagirdlər üçün yeni bir mövzu verir. Şagirdlər fikir mübadiləsi aparır, əldə etdikləri biliklərdən yararlanaraq, bu mövzunu daha da

şaxələndirirlər. Burada əsas məqsəd - şagirdləri düşünməyə təhrik etmək, sərbəst şəkildə yeni versiyalar söyləmək bacarığını möhkəmləndirməkdir.

"Dəyirmi masa" metodunun tətbiqi zamanı da müəllim bələdçi rolunu oynayır. Mövzuya aid bir fikri kağıza qeyd edir. Qrup şəklində bölünən şagirdlər verilən fikrə əlavə olaraq, öz bildiklərini yazır və dəyirmi şəkildə özlərindən sol tərəfdə əyləşən şagirdlərə ötürürlər. Bu zaman şagirdlərin fikirlərini bir-birindən fərqləndirmək üçün hər bir şagirdin müxtəlif rəngli qələmlərlə yazması əsas şərtdir. Sonda müəllim hansı qrupun daha fəal olduğunu müəyyənləşdirir və mövzu haqqında ümumi nəticəni verir.

"Venn diaqramı" — iki və ya daha artıq çevrələrin kəsişməsi üzərində qurulur. Kəsişən hissədə verilən mövzunun oxşar cəhətləri şagirdlər tərəfindən qeyd olunur. Sonda hər bir qrup işlədiyi diaqramı müəllimə təqdim edir, müəllim nəticələri qiymətləndirir.

"Beyin həmləsi" — burada əsas məqsəd daha çox fikir toplamaq, fikir azadlığı təmin etmək, öz fikrini dərhal, sərbəst söyləmək vərdişini formalaşdırmaq. Müəllim proqrama uyğun mövzunu verir. Mövzu ətrafında hər bir şagird sərbəst, azad fikir söyləyir. Bəzən fikirlər üst-üstə düşməyə də bilər. Bu zaman fikirlər tənqid olunmamalı, sadəcə düzəlişlər aparılıb, yekun nəticə şagirdlərə bildirilməlidir.

Yeni təlim metodları şagirdlərin fərdi bilik, bacarıq və qabiliyyətlərini üzə çıxarır. Dərsdə özlərini sərbəst hiss edən şagirdlər prosesin fəal iştirakçısına çevrilməklə, nəzəri məsələləri də şüurlu şəkildə dərk edirlər. Bu isə şagirdlərin zehni inkişafına müsbət təsir göstərir. Bununla da təlimin inkişafetdirici xarakteri özünü göstərir, şagirdlərin yaradıcı, məntiqi, tənqidi təfəkkürü inkişaf edir. Onlar həyatda baş verən hadisələrə fəal və düzgün münasibət bəsləməyə alışırlar. Nəticədə sərbəst düşünə bilən, fəal şagirdlər yetişməyə başlayır.

Müşahidələr göstərir ki, şagirdlərə müşahidə etməyi, nəticə çıxarmağı, fakt və hadisələrin başlıca cəhətini axtarıb tapmağı öyrənməklə təfəkkür inkişafında əsaslı irəliləyiş yaratmaq və onları biliklərin mənimsənilməsinin fəal iştirakçısına çevirmək mümkündür. Elə inkişafetdirici təlim ideyası da şagirdlərin əqli fəallığını təfəkkür müstəqilliyini gücləndirməyi tələb edir.

Müasir dövrdə təhsilin məzmununun yenilənməsi, islahatların miqyasının genişlənməsi, innovasiyaların meydana gəlməsi, demokratik, humanist dəyərləri özündə əxz edən bir cəmiyyətin formalaşması, yaddaşdan düşüncə, təfəkkür məktəbinə keçidin sürətlənməsi, yeni dəyərlərə söykənən şəxsiyyət yetişdirilməsi və s. bu kimi meyarlar kiçik məktəbli şəxsiyyətinin formalaşmasına təsiri böyükdür.

**Məqalənin aktuallığı.** Müasir cəmiyyətin tələbi kimi hərtərəfli şəxsiyyət yetişdirilməsi məsələsi həm ictimaiyyətin, həm də məktəbin qarşısında duran ən vacib məsələdir. Kicikyaşlı məktəblilərin hərtərəfli inkişafının əsas xüsusiyyətlərindən biri də inkişafetdirici təlim mühitinin məktəbli şəxsiyyətinə ən müasir metod və texnologiyalar vasitəsilə təsiridir. İntellektual və məntiqi təfəkkür qabiliyyətlərinin formalaşması ücün sağlam və inkişafetdirici mühit vacibdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə müasir metod və texnologiyaların tətbiqi vasitəsilə inkişafetdirici mühitin yaradılmasının ön plana çıxarılması açıqlanır, təlim prosesinin keyfiyyətinin yüksəldilməsində istifadə yolları göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən bu sahədə fəaliyyət göstərən mütəxəssislər faydalana bilər.

## Ədəbiyyat

1. Ə.Ə.Ağayev. Təlim prosesi. Ənənə və müasirlik, Bakı: Adiloğlu, 2006.
2. Y.Ş.Kərimov. Təlim metodları (dərs vəsaiti). Bakı, 2007.
3. Kurrikulum, 2008, № 2.

**А. Касумова**

## Влияние современное и развивающие обучение к личности школьников младших класс

## Резюме

В современном классе, где применяются развивающие методы обучения, необходимо создать более благоприятные условия для самостоятельной и свободной работы школьников. Основная цель современного образования – обучить молодое поколение, молодых людей, максимизировать эффективность обучения, применить свои знания в школе и объективно оценить события.

**A. Gasimova**

## Modern and promising training is a small school influence on personality

## Summary

In a modern classroom where developmental learning methods are applied, it is required to create a more favorable environment for students to work independently and freely. The main purpose of modern education is to educate a younger generation of young people who are able to maximize the effectiveness of the training, apply their knowledge to the objective and objectively evaluate the events.

**Redaksiyaya daxil olub:** 11.04.2019